**UDC:** 32.; 323.; 324.; 329.
**LBC:** 60.81; 60.82; 60.88
**MJ №** 346
10.33864/2617-751X.2025.v8.i6.265-279

# THE SYNTHESIS OF PHILOSOPHICAL THOUGHT AND ARTISTIC SENSIBILITY IN THE WORKS OF SAMED VURGHUN

**Aypara Abbasova***

**Abstract.** This article explores the unity of philosophical thought and artistic emotion in the works of Samad Vurgun, a prominent figure in XX century Azerbaijani poetry. The author examines the poet’s depiction of the relationship between humans and nature, as well as the philosophical-aesthetic representation of time and space, demonstrating that Vurgun was not only a master of lyrical expression but also a profound philosophical thinker. The article highlights the poet’s connection to ashig art and mugham, the preservation of the national spirit within his poetry and the emphasis on moral and spiritual values. The vivid portrayal of nature is presented in harmony with human inner world, while the flow of time and historical memory form the philosophical layer of his poetic vision. In Samad Vurgun’s works, the idea of a unified Azerbaijan is presented as a poetic symbol of national unity and spiritual integrity. Furthermore, the article emphasizes the role of national identity and respect for multicultural values as integral elements of Vurgun’s worldview. The poet’s aesthetic perspectives and his approach to beauty and art are also thoroughly analyzed. Thus, Samad Vurgun`s poetry can be seen as a harmony of thought and emotion, as well as a synthesis of classical and modern literary traditions.

**Keywords:** national and spiritual values, national identity, homeland, nature and human, aesthetic value

* Researcher, Department of Aesthetics, Institute of Philosophy and Sociology, Azerbaijan National Academy of Sciences; Baku, Azerbaijan
E-mail: abbasovaypara@gmail.com
https://orcid.org/0009-0005-3505-5866

**To cite this article:** Abbasova, A. [2025]. THE SYNTHESIS OF PHILOSOPHICAL THOUGHT AND ARTISTIC SENSIBILITY IN THE WORKS OF SAMED VURGHUN. *“Metafizika” journal, 8*(6), pp.265-279.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i6.265-279

***Article history:***
*Received: 15.05.2025*
*Accepted: 23.06.2025*
*Published: 04.09.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

*“Metafizika” Journal*
*Vol 8, issue 6, serial 34, 2025. pp.265-279*
*AcademyGate Publishing*
*p-ISSN 2616-6879; e-ISSN 2617-751X*
**УДК:** 32.; 323.; 324.; 329.
**ББК:** 60.81; 60.82; 60.88
**MJ №** 346
10.33864/2617-751X.2025.v8.i6.265-279

# СИНТЕЗ ФИЛОСОФСКОЙ МЫСЛИ И ХУДОЖЕСТВЕННОГО ЧУВСТВА В ТВОРЧЕСВЕ САМЕДА ВУРГУНА

**Айпара Аббасова***

**Абстракт.** В данной статье исследуется единство философской мысли и художественного чувства в творчестве Самеда Вургуна-выдающегося передставителя азербайджанской поэзии XX века. Автор рассматривает отображение взаимоотношений человека и природы, философско-эстетическое осмысление времени и пространства, доказывая, что Вургун был не только мастером лирического слова, но и глубоким философским мыслителем. В статье акцентируется внимание на связи поэта с ашыгским искусством и мугамом, отражении народного духа в поэзии, а также пропаганде нравственных и духовных ценностей. Образное описание природы представлено в единстве с внутренним миром человека, а течение времени и историческая память формируют философский пласт поэтического мышления. В творчестве Самеда Вургуна идея единого Азербайджана представлена как художественный символ национального единства и духовного целостности. Кроме того, подчёркивается важная роль национальной идентичности и уважения к мультикультурным ценностям в мировоззрении поэта. Эстетические взгляды Самеда Вургуна и его отношение к искусству и красоте также подвергаются детальному анализу. Таким образом, поэзия Самеда Вургуна представляет собой гармонию мысли и чувства, а также синтез классических и современных литературных традиций.

**Ключевые слова:** национальные и духовные ценности, национальная идентичность, родина, природа и человек, эстетическая ценность

---

* Научный сотрудник отдела эстетики Института философии и социологии Национальной Академии Наук Азербайджана; Баку, Азербайджан
E-mail: abbasovaypara@gmail.com
https://orcid.org/0009-0005-3505-5866

**Цитировать статью:** Аббасова, А. [2025]. СИНТЕЗ ФИЛОСОФСКОЙ МЫСЛИ И ХУДОЖЕСТВЕННОГО ЧУВСТВА В ТВОРЧЕСВЕ САМЕДА ВУРГУНА. *Журнал «Metafizika», 8(6)*, с.265-279.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i6.265-279

***История статьи:***
*Статья поступила в редакцию: 15.05.2025*
*Отправлена на доработку: 23.06.2025*
*Принята для печати: 04.09.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 32.; 323.; 324.; 329.
**KBT:** 60.81; 60.82; 60.88
**MJ №** 346
10.33864/2617-751X.2025.v8.i6.265-279

# SƏMƏD VURĞUN YARADICILIĞINDA FƏLSƏFİ TƏFƏKKÜRLƏ BƏDİİ DUYĞUNUN VƏHDƏTİ

**Aypara Abbasova***

**Abstrakt.** Məqalədə XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Səməd Vurğunun yaradıcılığında fəlsəfi təfəkkürlə bədii duyğunun vəhdəti tədqiq olunur. Müəllif şairin poeziyasında insan və təbiət münasibətlərini, zaman və məkanın fəlsəfi-estetik təcəssümünü araşdıraraq göstərir ki, Səməd Vurğun yalnız lirik duyğuların deyil, həm də dərin fəlsəfi düşüncənin ifadəçisidir. Məqalədə aşıq sənətinə və muğama bağlılıq, xalq ruhunun poeziyada yaşadılması, həmçinin milli-mənəvi dəyərlərin təbliği də ön plana çəkilir. Şairin əsərlərində təbiətin obrazlı təsviri insanın mənəvi dünyası ilə vəhdətdə təqdim olunur, zamanın axarı və tarixi yaddaş isə poeziyanın fəlsəfi qatını təşkil edir. Bununla yanaşı, milli kimliyin qorunması və multikultural dəyərlərə hörmət kimi prinsiplərin şairin yaradıcılığında özünəməxsus yer tutduğu göstərilir. Səməd Vurğun yaradıcılığında bütöv Azərbaycan ideyası milli birliyin və mənəvi vəhdətin bədii simvolu kimi təqdim olunur. Eyni zamanda, Səməd Vurğunun estetik baxışları, sənətə və gözəlliyə münasibəti də təhlil edilir. Şairin əsərlərində tariximizin şanlı səhifələri və ana dilimizin poetik qüdrəti xüsusi ehtiramla tərənnüm olunur, bu da onun yaradıcılığında milli özünüdərk və fəlsəfi dərinliyin vəhdətini nümayiş etdirir. Beləliklə, Səməd Vurğun poeziyasında düşüncə ilə duyğunun harmoniyası, klassik və müasir ədəbiyyatın sintezi kimi qiymətləndirilə bilər.

**Açar sözlər:** milli-mənəvi dəyərlər, milli kimlik, vətən, təbiət və insan, estetik dəyər

* Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə və Sosiologiya İnstitutunun “Estetika” şöbəsi, elmi işçi; Bakı, Azərbaycan
E-mail: abbasovaypara@gmail.com
https://orcid.org/0009-0005-3505-5866

**Məqaləyə istinad:** Abbasova, A. [2025] SƏMƏD VURĞUN YARADICILIĞINDA FƏLSƏFİ TƏFƏKKÜRLƏ BƏDİİ DUYĞUNUN VƏHDƏTİ. *“Metafizika” jurnalı, 8*(6), səh.265-279.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i6.265-279

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 15.05.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 23.06.2025*
*Çapa qəbul edilmişdir: 04.09.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Səməd Vurğun Azərbaycan xalqının həyatını, maddi-mənəvi dəyərlərini, adət-ənənələrini, milli kimliyini, tarixi keçmişini, dilini çox ustalıqla əsərlərində təsvir edir və tanıtdırırdı. Zəngin dili, təxəyyülü olan və söz ustası olaraq sənətində qeyri-adi zirvəni fəth edən, poeziyanın zirvəsində dayanan S. Vurğun, dil üslubu, sadəliyi, aydınlığı, təbiliyi, ritim axıcılığı, mənzərəliliyi, fəlsəfiliyi ilə seçilir, sevilirdi. S.Vurğun poeziyasının rəngarəngliyi və fərqliliyi ondadır ki, o, yaratmış olduğu istər əfsanəvi obrazlarını, istərsə də real obrazlarını dərindən hiss edir, yaratdığı obrazların hər jestini, hər bir emosional hal və hərəkətini heyratamiz dərəcədə, aydın şəkildə təsvir edir və öz qəhrəmanlarının həyatının axarını, təbiətini dərin fəlsəfi aforizimlərlə, düşüncələrlə bəzəyərək onlardan danışır və oxucuya sevdirir, oxucunu valeh edir. S.Vurğun görkəmli şair olmaqla yanaşı, həm də dərin fəlsəfi fikir sahibi, mütəfəkkür alim olmuşdur. S.Vurğun həmçinin gözəl araşdırıcı, tənqitçi və mükəmməl dilçi idi. S.Vurğun ədəbi tariximizin yaddaşında həm də rus, gürcü, özbək, tatar və.s dünya xalqlarının ədəbiyyatından etdiyi tərcümələrlə, dahi Nizaminin, Füzulinin doğma dilimizə çevirdiyi möhtəşəm əsərləri ilə də yadda qalmışdır.

S.Vurğun yeniliyi sevən bir şair olaraq geriliyin, cahilliyin əlehinə çıxırdı. Ancaq inkişafla yanaşı o, milli düşüncənin, adət-ənənələrin qorunub saxlanmasının tərəfdarı idi və bunu öz yaradıcılığında da tərənnüm edir, gələcək nəsillərə ötürmək üçün milli adətləri, tariximizi poetik dildə yazıb, yaşadırdı. Özünün “Biz və tarixi keçmişimiz” adlı çıxışında vurğulayırdı. “Yazıçı dühası mənsub olduğu xalqın mənəvi aləmi ilə məşğul olduğu vaxt bu aləmi çərçivəyə alınmış məhdud bir məkan və zaman mənasında düşünə bilməz. Xalq əfsanələrinə soyuq bir nəzərlə baxan yazıçılar unudurlar ki, bütün əfsanələr xalq dühasının məhsuludur. Hər əfsanədə xalqın real həyatı, şüur və zövqləri, onun gələcəyə olan inam və arzuları əks olunmuşdur. Xalq tarixi küll şəklində yaşanılmalıdır!” [1. v cıld, s.173].

## 2.Vurğun yaradıcılığında insan və təbiət

Təbiətə fəlsəfi baxış, həyatın qanunlarını anlamaq arzusu, insanın təbiətə, eləcə də təbiətin insana təsiri, insanlarda estetik zövqlərin formalaşması məsələləri onun yaradıcılığının əsasıdır. S.Vurğunun poeziyasında insanın təbiətlə harmoniyası əsas motivlərdən biridir. Şair öz yaradıcılığında təbiətin gözəlliyini, gücünü və insan həyatına təsirini vəsf edərək, onu xüsusi fəlsəfi çalarlarla təqdim edir. Onun şeirlərində təbiət təkcə dekorativ bir fon, məkan deyil, həm də insana ruhən bağlı, onun hisslərini və düşüncələrini əks etdirən canlı bir varlıqdır. Təbiət Səməd Vurğun üçün ontoloji bir varlıqdır-insanı yaradan, onu daim dəyişən, inkişaf edən bir mühitdə yaşamağa məcbur edən başlanğıcdır. Təbiətdə baş verən dəyişikliklər insanın daxilində də

dəyişikliklər doğurur. İnsan təbiətin ritimlərinə tabe olmaqla, onunla harmoniyada yaşamaqla öz mənəvi bütövlüyünü qoruyur. Bu cür yanaşma S.Vurğunun maarifçi baxışında da özünü göstərir: o, insanın təbiəti sadəcə istisimar etməklə deyil, onun qanunlarına hörmət və sayqı göstərməklə kamilləşəcəyinə inanır və eyni zamanda insan təbiətdən ayrılmır, əksinə onun bir təzahürü kimi ortaya çıxır. S.Vurğun poeziyasında təbiət dinamik bir sistem kimi təqdim olunur.: dağlar, çaylar, meşələr daim hərəkətdədir, dəyişir, yenilənir. Bu da, təbiətin dialektik inkişaf qanunlarına uyğun təcəssümüdür və eyni zamanda simvolik məna daşıyır: məsələn fəsillərdən biri olan bahar təkcə mövsümi dəyişiklik deyil, həm də ruhun oyanışını, xalqın yenidən doğulmasını simvolizə edir. Bu sadalananlarla yanaşı təbiət həmçinin əxlaqi və estetik dəyər daşıyır. Beləki, təbiət gözəlliyi insanda saf duyğular yaradır, onu ali mənəvi keyfiyyətlərə yönəldir.

Bahar nə xoş gəlir, ruha dad verir.
Xəyala, duyğuya qol-qanad verir,

Vurğun poeziyasının bədii estetik idealının mərkəzində insan və onu təbiətin, sənətin gözəllikləri ilə harmoniyasının təşkili dururdu. İnsan obrazı onun poeziyasında təbiət qarşısında passiv müşahidəçi yox, fəal yaradıcı subyekt kimi çıxış edir. İnsan təbiətin bir parçası olmaqla yanaşı, həm də onu dəyişdirən, zənginləşdirən qüvvədir. Şair deyirdi: “*Təbiətlə insan arasında ayrılmaz bağlar var. Əks təqdirdə heç bir həyat və hərəkət ola bilməz. Mən təbiətdə özümü, özümdə isə təbiəti görürəm*” [2. s.103-105]. Estetik baxımdan S.Vurğun təbiət lövhələrini realizmlə romantizmin sintezində yaradır. Onun təsvirlərində konkret coğrafi məkanlar- Göy-Göl, Dilican dərəsi, Şuşa dağları, Ceyrançöl həm real gözəlliyi əks etdirir, həm də insanın iç dünyasındakı harmoniya arzusunu simvolizə edir. Eyni zamanda bu estetik yanaşmada təbiət gözəlliyi həm də milli kimliyin, tarixi yaddaşın ifadəçisi olur. Bundan başqa S.Vurğun yaradıcılığında təbiət və insan münasibətləri bəşəri bir ölçü qazanır. Şair insanın təbiətlə harmonik əlaqəsinin pozulmasını faciə kimi qiymətləndirir və bu harmoniyanın bərpasını insanın mənəvi kamilləşməsinin əsas şərti hesab edir. Buradan belə bir nəticəyə gəlmək olar ki, S.Vurğun təbiətə münasibətdə ekoloji düşüncənin poetik əsaslarını da qabaqlayır. Onun yaradıcılığında insan və təbiət vahid bir varlıq olaraq təqdim edilir. Onların arasında qurulan estetik və fəlsəfi əlaqə insanın öz varlığını daha dərindən dərk etməsi və kainatla vəhdətə çatması ideyasına xidmət edir. Şairin bu baxışı təkcə ədəbiyyat üçün deyil, müasir humanist və ekoloji təfəkkür üçün də mühüm əhəmiyyət daşıyır. Onun əsərlərində insan təbiətlə ayrılmaz vəhdət təşkil edir, təbiət insanın mənəvi inkişafının əsas şərti kimi təqdim olunur. Şairin bu yanaşması müasir dövr üçün də aktualdır və ekoloji düşüncənin inkişafında bədii nümunə rolunu oynayır və sözün həqiqi mənasında ekoloji

humanizm ideyalarının ədəbi əsasını qoymuş olur. S.Vurğunun ədəbiyyatımıza gətirdiyi bənzərsiz poetik dünyagörüşü insanla təbiət arasında olan varlıq və məna əlaqəsini yeni fəlsəfi-estetik səviyyəyə qaldırmışdır. Belə ki, şair təbiət obrazlarını yalnız təsvir etmir, eyni zamanda onları poetik simvollara çevirir. Onun poeziyasında dağlar-iradənin, sədaqətin, yenilməzliyin, çaylar-həyat axınının, arzuların, bahar- yenilənmənin rəmzidir. Məhz bu simvolika vasitəsilə insanın həyatı və təbiət hadisələri arasında dərin əlaqələr qurulur. Vurğun yaradıcılığında təbiət canlı və daim inkişaf edən bir sistem kimi, insan isə bu sistemin məhsulu və eyni zamanda onu dərk edən, dəyişdirən bir subyekt kimi təqdim olunur. S.Vurğun insanın mənəvi mahiyyətini poetik dildə estetikləşdirərək, özünəməxsus şəkildə fəlsəfiləşdirmişdir. Çünki, S.Vurğun poeziyasında biz həyat barədə quru mühakimələrlə deyil, əsil bədii kamillik və poetik orijinallıq ilə rastlaşırıq. Yalnız ayrı-ayrı misralardan deyil, bütöv poetik əsərdən zövq alırıq [3. s.62].

**3.Səməd Vurğun poeziyasında aşıq yaradıcılığı və muğamlar**

S.Vurğun poeziyası xalq ruhunun, milli duyğuların və aşıq sənətinin ən gözəl ifadəçilərindən biridir. Vurğun poeziyasında aşıq yaradıcılığı mövzusu olduqca maraqlı və rənarəngdir. Şair klassik aşıq yaradıcılığına dərindən bağlı olmuş, aşıq şerinin ənənələrini öz yaradıcılığında yaşadaraq yeni məzmun və ideyalarla zənginləşdirmişdir və eyni zamanda müasir poeziya ilə sintez etmişdir. Şairin poeziyasında aşıq yaradıcılığının təsiri bir neçə cəhətdən görünür. Mövzu baxımından, forma və üslub baxımından, dil və obrazlılıq eyni zamanda ruh baxımından. Belə ki, S.Vurğun öz poeziyasında aşıq sənətindən yalnız formaca deyil, ruhən də bəhrələnmiş, xalqın sözünü, arzu və düşüncələrini bədii dillə ifadə etmişdir. S.Vurğun xalqın həyatına, onun məhəbbətinə, qəhrəmanlığına, təbiət gözəlliklərinə aşıq sənətində olduğu kimi yanaşır. Onun şeirlərində torpağa bağlılıq, ana yurda sevgi motivləri güclü şəkildə hiss olunur. Bu motivlər əsrlərlə aşıq şerinin ana xəttini təşkil edən ideyaların müasir poeziyada davamı kimi çıxış edir. S.Vurğun aşıq şerinin klassik biçimlərindən olan qoşma, gəraylı, təcnis formalarından təsirlənmişdir və şeirlərində aşıq şerinin özünəməxsus ritm və ahəngi hiss olunur. Beləliklə, şair aydın, axıcı ritm, şirin və sadə dil, təbii bədii təsvirlər aşıq poeziyasının üslub xüsusiyyətlərini bütünlüklə öz şeirlərində yaşatmışdır. S.Vurğunun bir çox şeirlərində təkrarlara, rədif və qafiyə oyunlarına rast gəlmək mümkündür ki, bu da aşıq yaradıcılığının formalaşdırdığı poetik ənənənin davamıdır. S.Vurğun poeziyasının dili xalqın canlı danışıq dilinə əsaslanır. Onun şeirlərində xalqın gündəlik həyatında işlənən söz və ifadələr, atalar sözləri və məsəllər, xalq deyimləri tez-tez işlənir. Bu xüsusiyyət isə onun poeziyasına aşıq yaradıcılığından gələn bir sadəlik və təbilik qatır. Aşıq poeziyasına xas olan obrazlılıq, təşbehlər, təzadlar, təkrarlanan bədii detallardan S.Vurğun öz

yaradıcılığında bacarıqla istifadə etmişdir. Məsələn, onun şeirlərində tez-tez rast gəlinən "dağlar", "dərələr", "çaylar", "küləklər" kimi ifadələr xalq təfəkkürünün və aşıq yaradıcılığının bədii simvollarıdır. S. Vurğun çox ustalıqla bu ifadə və obrazlardan istifadə edərək həm xalq şüurunu, həm də öz fərdi duyğularını ifadə etmişdir. Əsasən öz poeziyasının ruhunda aşıq sənətinin həyatsevərliyi, insana və təbiətə ünsiyyətdə tapılan ruhi rahatlıq hissi öz əksini tapır. Aşıq sənətində olduği kimi S.Vurğunun şeirlərində də insanın təbiətin ayrılmaz bir hissəsi olduğu ideyası daim vurğulanır. Onun "Azərbaycan", "Yadıma düşdü", "Dağlar" və bir çox əsərlərində aşıq yaradıcılığına xas olan poetik üslub açıq-aşkar sezilir.

Vurğunu da salar yada
Düz ilqarlı bizim dağlar

Bu bəndlərdə təbiiətə insan kimi yanaşmaq, dağlarla dostlaşmaq, dərdləşmək əslində aşıq poeziyasına xas olan xüsusiyyətlərdir. Aşıqlar tez-tez dağları, çayları, təbiəti canlı obrazlar kimi sevə-sevə tərənnüm ediblər. Vurğun da eyni ənənəni müasir duyğularla davam etmişdir. S.Vurğun öz yaradıcılığında aşıq sənətinin ənənələrini yeni bədii düşüncə tərzi ilə birləşdirərək Azərbaycan poeziyasına yeni bir nəfəs gətirmişdir. Onun şeirləri həqiqətən də xalqın ruhunu ifadə etmiş, aşıq sənətinin təbiiliyini, sadəliyini, həyatsevərliyini müasir poeziya ilə harmonik şəkildə birləldirmişdir. Məhz elə bu səbəbdən S.Vurğun yaradıcılığı həm klasik aşıq poeziyasının davamı, həm də onu yeni mərhələyə daşıyan zəngin bir bədii irsdir.

Dahi şairlərimiz Nizaminin, Füzulinin təsiri ilə yetişən S.Vurğun yaradıcılığında aşıq yaradıcılığı ilə yanaşı muğamlarımız da mühüm yer tutur. Bu elementlər də onun poeziyasına dərin milli ruh və estetik zənginlik verir. S.Vurğun xalqın duyğularını, ağrı-acısını, sevincini poeziyasında əks etdirərkən xalq musiqisindən ilham alıb. Onun şeirlərindəki ritm, ahəng, melodiya xalq mahnılarına bənzəyir. Onun "Yadıma düşdü", "Azərbaycan", "Dağlar", "Kür çayı", "Qarabağ şikəstəsi", "Dünya", və s. kimi əsərlərində xalq ruhu və milli musiqi motivləri aydınca duyulur. Onun dili sadə, melodik, və axıcıdır ki, bu da xalq musiqisinin əsas xüsusiyyətlərindəndir.

Muğama gəlincə, muğam Vurğunun poetik dünyasında təkcə musiqi forması deyil, eyni zamanda fəlsəfi məna daşıyır. Muğamın improvizə, dərinlik və emosional zənginlik xüsusiyyətləri onun şeirlərində, qəzəllərində aydın şəkildə görünür. O, muğam ahəngini bəzən ritmik struktura, bəzən isə obrazların ifadəsinə çevirir. Şair, xalq musiqisini, muğamı yalnız təsvir etməyib, həm də poeziyasına hopduraraq onları sənətinin bir parçasına çevirib. Məsələn şairin "Dağlar" şeirində təbiət təsvirləri, insan duyğuları ilə vəhdətdədir və bu da müğamın ruhuna çox yaxındır. Muğamda da dağ, su, külək, yol kimi motivlər tez-tez insanın daxili aləmi ilə paralel verilir.

Gözüm yolda, könlüm səsdə,
Deyin, necə dözüm, dağlar?

Burada şairin daxili həsrət və nisgil dolu ahəngi muğamların fəlsəfi-emosional ruhuna bənzəyir. Onun poemalarında xalq musiqisinə, xalq danışıq tərzinə yaxın ifadələr çoxdur və bu da dastanvari üslub, ritmik təkrarları göstərir. S.Vurğunun poeziyası sözün əsl mənasında musiqi kimidir. Yəni ritmik, melodik, hissiyatla zəngindir. O, xalq musiqisini, aşıq musiqisini, muğamı təkcə mövzu kimi deyil, həm də poetik quruluşda, ritmdə, ahəngdə istifadə etmişdir.

**4.Səməd Vurğun poeziyasında milli kimlik və multikultural dəyərlər**

S.Vurğunun yaratdığı bütün obrazlar orjinallığı, müxtəlifliyi, rəngarəngliyi ilə seçilirdi. Belə ki, öz milli xarakterini yaratdığı əsərlərdə ortaya qoyan şair həmçinin digər millətlərdən olan qəhrəmanlarını da mənsub olduqları milli düşüncəsinin reallıqlarını, təbiətini, həyat tərzini olduğu kimi təsvir edirdi. O, dinindən, dilindən asılı olmayaraq müxtəlif insan talelərinin inkişaf qanunlarının izahında, kökündə mənəvi amillərin, əxlaqi idealların, milli söykökün, milli düşüncənin, milli dəyərlərin əsas rol oynadığını gösdərirdi. Yazdığı əsərlərdən aydın olur ki, insan gələcəyə doğru öz kökləri üzərindən inkişaf etməli, öz qocaman kökü üzərində pöhrələnib, qol, budaq atmalıdır. S.Vurğun təkcə Azərbaycan xalqının deyil, bütövlükdə insanlığın ortaq dəyərlərini yüksək qiymətləndirir: xalqlar dostluğu və bir-birinə hörmət onun əsərlərinin əsas ideyalarından biri kimi çıxış edir. O, sovet dövrünün beynəlmiləl ideyalarını mənimsəmiş və bu ideyaları rəmzi tərzdə deyil, insanların birliyi, mədəniyyətlərin zənginliyi, bəşəri dəyərlərin paylaşılması kimi təqdim edirdi. Məsələn onun "İnsan" poeması insanlığı bir araya gətirən humanist baxışlarını əks etdirir.

Səməd Vurğun həm klassik, həm də çağdaş elementləri birləşdirərək milli ruhu poeziyada çox güclü ifadə etmişdir. Şeirlərində qəhrəmanlıq ruhu, azadlıq arzusu, torpağa bağlılıq və hətta bütöv Azərbaycan tərənnüm olunur. Əsərlərində milli kimliyin əsas sütunları olan dil, tarix, mədəniyyət, vətən sevgisi çox qabarıq şəkildə verilir. O, milli mənsubiyyəti təkcə nostalji hisslərlə deyil, həm də gələcəyə inam, inkişaf arzusu ilə yanaşı təqdim edir. Həmçinin, Vurğun Azərbaycan dilinin gözəlliyini, zənginliyini qoruyub inkişaf etdirməyə çalışırdı. Onun dili sadə, aydın və ən əsası xalqın ruhuna yaxın idi. Sadəliyi və xalq dilinə yaxınlığı ilə yanaşı o yüksək bədii dil qurmaqdan qaçmırdı və əksinə bunu elə edirdi ki, xalqın gündəlik danışıq dili poeziyada öz yerini tapırdı. Eyni zamanda, Azərbaycan türkcəsinin saf, orijinal sözlərinə üstünlük verir, yad, gəlmə sözlərdən bacardığı qədər dilimizi təmizləyirdi. Məhz bu da onu oxucular üçün daha doğma və təsirli edirdi.

Vurğun yaradıcılığında el və oba anlayışı da xüsusi yerlərdən birini tutur. El və oba qədim türkçülük düşüncəsindən meydana gələn bir anlayşdır. Bu türklərin sosial, siyasi və mədəni təşkilatlanmasını izah edən bir anlayışdır. Belə ki, el- dövlət, birlik anlamını ifadə etməklə bir növ dövlət yaratmaq mənasında işlənirdi. Oba- isə kiçik icma, kənd məskənlərini göstərirdi. Türkçülükdə el milləti, oba isə onun dayaqlarını tayfaları ifadə edirdi. Xalq arasında atalar sözləri kimi məşhur olan ifadələr, məsələn “El gücü-sel gücü”, “El başına bəla gələrsə, oba da çökər” kimi deyimlər dövlətin xalq üçün nə qədər önəmli olduğunu göstərir. Şairin yaradıcılığında el-obaya bağlılıq da xüsusi sevgiylə, həssaslıqla tərənnüm edilir. Vurğunun əsərlərində el və oba anlayışı həm məcazi, həm də real mənada işlənir. Onun üçün el-oba sadəcə coğrafi məkan deyil, onun üçün el-oba əsasən xalqın tarixi yaddaşı, adət-ənənələri, mənəvi varlığıdır. Vurğun poeziyasında bu anlayışlar Vətən məhəbbəti ilə bağlı anlayışlardır. Onun dillər əzbəri olan “Azərbaycan” şerində el-obaya olan sevgisini açıq şəkildə ifadə edir:

Mən bir uşaq, sən bir ana,
Odur ki, bağlıyam sana,
Hankı səmtə, hankı yana
Hey uçsam da yuvam sənsən,
Elim, günüm, obam sənsən!

Burada el və oba bütövlükdə Azərbaycan torpağı ilə eyniləşdirilir. Şair xalqın keçmişini, onun qəhrəmanlıq ruhunu və adət-ənənələrini də el və oba anlayışı vasitəsilə əks etdirir. Məsələn “Komsamol” poemasında köhnə el adətləri ilə yeniliyin toqquşması. “Vaqif” dramında elin birliyi və dövlətçiliyin qorunması əsas ideyalardandır. Burada el anlayışı təkcə məskən deyil, həm də xalqın mübarizəsi, birlik simvolu kimi göstərilir. Eyni zamanda şairin qəhrəmanları da el-oba sevgisindən güc alır və qəhrəmanlıq onun yaradıcılığında milli kimliyin əsas ifadə formalarından biridır. O, qəhrəmanlarını fərdi cəsarət nümunələri kimi deyil, xalqın ruhunun daşıyıcıları, xalqın birliyi, azadlıq istəyi kimi təqdim etmişdir. S.Vurğun milli kimliyi yalnız gözəl təbiət və mədəniyyətlə deyil, xalqın qəhrəmanlıq ruhu ilə də ifadə etmişdir. Əsərlərində qəhrəmanları göstərərkən, onların xalqdan doğulduğunu və xalqla bir olduğunu göstərmişdir. Şairin əsərlərində milli kimlik yalnız keçmişdə qalmış bir hiss kimi deyil, canlı və gələcəyə daşınan bir ruh kimi təqdim olunur. Yaratdığı qəhrəmanlıq obrazları, eyni zamanda qadın, ana obrazları vasitəsilə ilə də xalqın müqəddəsliyini və mənəvi gücünü göstərə bilmişdir. “Aslan qayası”, “Ananın öyüdü” və s. şeirlərində bunu görmək olur.

Qulağında yaxşı qalsın, mənim sənə öyüdüm:
Biz sənsiz də dolanarıq, uğur olsun yoluna,

Qılıncını çalan zaman qüvvət gəlsin qoluna!
Sən düşmənin qabağında igid tərpən vüqarla,

Bu şeirdə, yəni "Ananın öyüdü" şeirində ana yalnız bir fərd kimi deyil, bütün xalqı simvolizə edir. Onun yetişdirdiyi övlad da Vətənə xidmət edən qəhrəmandır. Milli kimlik burada, ailə, torpaq və vətənə sədaqət kimi əsas dəyərlərlə birləşir. Eyni zamanda o, əsərlərində Vətəni təkcə keçmiş şanlı tarixlə deyil, gələcək ümidlərlə də bağlayır. Bununlada milli kimliyi statik yox, dinamik bir anlayış kimi göstərir. Yəni milli kimlik daim inkişaf edən, yaşamaq uğrunda mübarizə aparan bir milli ruh kimi səciyyələndirilir.

Səməd Vurğun yaradıcılığında zaman və məkan anlayışları da mühüm yer tutur. Onun əsərlərində bu anlayışlar həm ümummilli, həm də bəşəri miqyasda özünü göstərir və zaman təkcə real tarixi hadisələri (xalqın keçmişi, bu günü, gələcəyi) ifadə etmir, həm də fəlsəfi və romantik çalarlara təsvir edilir. O, xalqın qəhrəmanlıq tarixini, azadlıq uğrunda mübarizəsini və gələcəyə inamını zaman axarında təsvir edir. Şair üçün zaman, əsasən, xalqın tarixi inkişafını ifadə edir. O, çox zaman tarixi dövrləri canlandırır, qəhrəmanlıq və fədakarlıq motivləri ilə zənginləşdirir. Şairin yaradıcılığında zaman təkcə tarixi fakt deyil, həm də insanın hiss etdiyi, yaşadığı bir "daxili zaman"dır. Bəzən, Vurğunun əsərlərində keçmiş, indi və gələcək bir anda cəmlənir. Bu zaman anlayışı xalqın dəyişməz milli ruhunu ifadə edir. "Komsomol poeması" da yeni quruluş dövrünün "indi"sini və parlaq "gələcək" idealını canlandırır.

S.Vurğun yaradıcılığında məkan xüsusilə diqqət çəkəndir. Onun yaradıcılığında məkanın əsas tipi vətəndir. Azərbaycan dağları, çayları, kəndləri, şəhərləri onun şeirlərində həm gerçək, həm də ideal obrazlardır. Təbii məkanlar şair üçün sadəcə bir fon deyil, bir obrazdır. Təbii məkanlar onun şeirlərində insan duyğularını ifadə edir. Bəzən də məkanlar daha geniş məna kəsb edərək, bütün bəşəriyyətin arzularını ifadə edən obrazlar olur. Beləki, bu cür əsərlərində şair öz yaradıcılığını bütün dünyaya, insanlığa həsr etdiyini göstərir. Məkan artıq Azərbaycanla məhdudlaşmır, universal olur. Ümumiyyətlə, S.Vurğun əsərlərində özünəməxsus şəkildə təsvir etdiyi məkana tarixilik və qəhrəmanlıq çalarları verə bilmişdir. Bir sözlə Səməd Vurğun yaradıcılığında zaman- xalqın tarixi və insanın həyat axarı kimi verilir, keşmiş və gələcək bir-birinə bağlanır. Məkan isə həm real (dağlar, dərələr, vətən torpağı və s.), həm də simvolik (azadlıq, insanlıq) çalarları daşıyır.

S. Vurğun yaradıcılığında qədim inancların, xüsusilə də atəşpərəstliyin rəmzi motivləri olan od-ocaq, günəş tez-tez yada salınır. O, milli ruh və tarixi yaddaş məsələlərinə önəm verən şair kimi, əsərlərində tez-tez xalqın keçmişinə, qədim inanclarına, mifik obrazlara müraciət etmişdir. Atəşpərəstlik Azərbaycan xalqının çox qədim dini-fəlsəfi dünyagörüşünü əks etdirən bir mərhələ olaraq, S.Vurğunun poeziyasında əsasən simvolik mənada, "od", "atəş"anlayışları

vasitəsilə özünü göstərir. Vurğun yaradıcılığında “od” yalnız fiziki bir ünsür kimi deyil, həm də ilahi gücün, təmizliyin, vətən sevgisinin simvoludur. Od, atəş birbaşa tanrının təcəssümüdür, təmizləyən və yönəldən bir qüvvədir. Odu yandıran bir qüvvə kimi təsvir etməklə, şair qədim atəşpərəstlik dünyagörüşünü yenidən dirçəldir, amma onu artıq müasir ideyalarla, vətənpərvərliklə, ruhani saflıqla əlaqələndirir. Bəzi şeirlərində, poemalarında Vurğun atəşpərəst məbədlərinə, qədim od tanrılarına və bu odun ətrafında birləşmiş milli kimliyə dolayısı ilə işarə edir. Eyni zamanda od məbədləri həm də mədəniyyətin və müqəddəsliyin daşıyıcısı kimi təqdim olunur. Bu baxımdan od tarixi yaddaşın rəmzinə çevrilir. S.Vurğunun yaradıcılığındakı atəşpərəstlik obrazlarını ədəbi-fəlsəfi kontekstdə digər şairlərin, filosofların əsərləri ilə müqayisəli şəkildə təhlil etdikdə fərqli yanaşmanın olduğunu da görmək olar. Məsələn dahi şairimiz Nizami Gəncəvinin “Xəmsə”sində də od motivi var, lakin o, daha çox kosmik bir ünsür kimi, kainatın yaradılışına bağlı təqdim olunur. Dahi Füzulidə də od motivi var, lakin o, daha çox eşqin metaforasıdır. Füzuli üçün odun fəlsəfəsi mistik məhəbbət üzərində qurulur – Vurğun isə onu xalqın keçmişi və gələcəyi arasında bir körpü kimi göstərir. Düzdür, Vurğun birbaşa Zərdüşt adını çox tez-tez çəkməsə də, ancaq onun işığında, odunda, haqq və ədalət axtarışında Zərdüşt fəlsəfəsinin izlərini dərin qatlarını aydın şəkildə hiss etmək olur. Şair hətta Zərdüştün bir peyğəmbər olaraq bizə bağlılığını çox böyük məharətlə poetik dildə oxucusuna təqdim edir. S.Vurğun atəşpərəstlik motivlərini yalnız bir dini motiv kimi yox, həm də tarixi yaddaşın simvolu, milli ruhun təcəssümü, ədalətin və həqiqətin işığı, şəxsi və ictimai saflaşmanın rəmzi kimi təqdim edir. Onun poeziyasında bu obrazlar həm milli, həm də bəşəri məzmun daşıyır və bu baxımdan o, klassik irsi müasir ruhla birləşdirərək unikal bir poetik fəlsəfə yaradır. Hətta şair 1946-cı ildə yazmış olduğu “İnsan” poevestində Zərdüştün Hörmüz və Əhrimanın timsalında xeyirlə şərin mübarizəsi fəlsəfəsini tənqid edən, bizim zəmanəmiz üçün bu fəlsəfə köhnəlmişdir deyən tənqidçilərin fikirlərinə sözün həqiqi mənasında milli ideoloji cavab olaraq, yazılı surətdə bunları söyləmişdir. “Birincisi müasir adam kimi, sovet yazıçısı kimi, Zərdüştün fəlsəfəsini özünün yüksək hümanizminə görə bizim dövr üçün köhnəlmiş hesab etmirəm. İkincisi, bir milli adam kimi ənənəvi olaraq öz psixologiyamızda çoxəsirlik milli ideologiya, fəlsəfə və habelə psixologiya və mənəviyyatın nəcibliyini daşıyır və yaşayıram” [4. V c. s.156]. Həmçinin, Vurğun hələ kiçik yaşlarından Quranı yaxşı öyrənir və surələri sinədəftər, əzbər bilirdi. Şairin qardaşı Mehdixan Vəkilov xatirələrində yazırdı. Azərbaycanın məşhur demokrat maarifçisi və ədəbiyyatşünası Firudin bəy Köçərli 1918-ci ilin sentyabrından etibarən keçmiş Qori müəllimlər seminariyasının “Tatar şöbəsi”ni çox böyük əziyyət və fədakarlıqla Qazaxa köçürmüş və onun əsasında Qazax müəllimlər

seminariyasını təşkil etmişdir. Seminariyaya çox uşaq qəbul olsa da Firidunbəy Səmədin xəstəhal görkəminə görə onu qəbul etmirdi. Bu balaca tifilin dediyi "Eh! Firudinbəy, hardan biləsən ki, bu ürəkdə nə var?!" kəlmələri ona qarşı yönəlmiş fikirləri dəyişir. Ənənəyə əsasən birinci Qurandan surə oxunduğuna görə Səməddən Əmma surəsini oxumağını istəyirlər. Səməd surəni sinədəftər, xoş və gözəl bir avazla oxumağa başlayır [5. s.43]. Əslində Səməd Vurğun Allahını da, Quranını da tanıyıb və sevib. Düzdür Səməd Vurğunun yaradıcılığı əsasən humanist, vətənpərvər və azadlıq ideyaları ilə zəngindir. Onun poeziyasında İslam dini və Qurani-Kərim birbaşa əsas mövzu kimi geniş işlənməsə də, ancaq dini motivlərə, islam mədəniyyətinə və tarixinə istinadlar yer alır. Vurğun İslam dininə tənqidi yanaşan sovet ideologiyasının təsirində olsa da, dini tamamilə rədd etmirdi. O, daha çox İslamın mədəni və tarixi aspektlərini önə çəkir və klassik Şərq poeziyasından xüsusilə də dahi Füzulidən, Nizamidən ilham alırdı. Qurani-Kərim isə onun şeirlərində bəzən simvolik və ya poetik obraz kimi işlənə bilər, amma bu, təbliğat yox, daha çox estetik və ədəbi məqsədlə olurdu. Bütün bu deyilənlərlə yanaşı S.Vurğun İslam dininə hörmətlə, xüsusi həssaslıqla yanaşırdı. Ümumiyyətlə Səməd Vurğun milli dəyər hesab edilən dini inanclara qarşı hər zaman qoruyucu mövqedən çıxış etmişdir.

Vurğun yaradıcılığında turanşılıq ideyalarının pöhrələrinə də rast gəlinir. Ancaq Vurğunun turançılıq ideyalarına münasibəti bir az daha fərqli və bir az da mürəkkəbdir. S.Vurğun öz poeziyasında Azərbaycan sevgisini, türk dünyasına bağlılığı və ümumtürk mədəniyyətinə hörməti ifadə etsə də, onun əsərlərində açıq-aşkar turançılıq ideyaları əsas xətt kimi çıxış etmirdi. Buna isə məlum olan bir neçə səbəb var idi. Birincisi S.Vurğun Sovet şairi idi və o dövrdə açıq şəkildə turançılıq ideyalarını təbliğ etmək ciddi və ağır nəticələri olacaq qadağalarla qarşılanırdı. Bildiyimiz kimi SSRİ- də turançılıq millətçilik və pantürkizm kimi qəbul olunur və bu ideyaların tərəfdarları təqib edilirdi. Bütün bu çətinliklərə baxmayaraq S.Vurğun ideoloji çərçivələr içində milli kimliyi ifadə etməyə çalışırdı ki, bu da onun yaradıcılığında "sosialist vətənpərvərliyi" ilə "milli kimlik" arasında bir balans yaratmaq zərurəti doğururdu. Şair bu çətinliyi ustalıqla həll edir və milli ruhu əsərlərində qorumağı bacarırdı. S.Vurğun yaradıcılığı həm ana dilinə dərin sevgi, həm də milli kimliyə bağlılıq ilə yoğrulmuşdur. O, sözün gücü ilə bir xalqın yaddaşını, ruhunu və varlığını yaşatmağa çalışan dahi sənətkarlardandır. S.Vurğunun fəlsəfi dünyagörüşünə nəzər saldıqda görürük ki, o sadəcə fəlsəfi məfhumlarla bağlı fikirlər söyləməklə kifayətlənmir, eyni zamanda özünə məxsus şəkildə öz təkarolunmaz, orjinal fəlsəfəsini, mənəvi dünyasının zənginliyini ortaya qoyur və potensial estetik təcrübəyə, mədəniyyətə malik olduğunu göstərə bilir. "Mən özümü bu dünyada, Dünyanı məndə dərk eləyib məna dolu, hər şey

olaydım” [6 Sözlər.imhttps://www.sozler.im “authors”]. Asif Əfəndiyev Vurğun fəlsəfəsindən danışarkən deyirdi. S.Vurğunun filosofluğunu onun ayrı-ayrı mülahizələrində deyil, yaratdığı obrazlarda görmək lazımdır. Deməli, filosofun traktatlar, məqalələr vasitəsilə söylədiyi hikməti sənətkar bədii obrazın qüdrətli dili ilə söyləyir [7, s.16].

**5.Nəticə**

S.Vurğun təkcə söz ustası deyil, eyni zamanda poeziyanın estetik gücünü formalaşdıran öncül sənətkarlardan biridir. Onun yaradıcılığına nəzər saldıqda görürük ki, şairin poetik dili, milli düşüncəyə söykənən obrazlar sistemi və insana, vətənə olan məhəbbəti estetik dəyər müstəvisində yeni bir mərhələ yaradır. Bu baxımdan S.Vurğunun poeziyasında estetik dəyər, yəni əsərlərin bədii-estetik səviyyəsini müəyyənləşdirən göstəricilər xüsusi əhəmiyyət daşıyır. Əvvəla, Vurğunun poeziyası milli kimliyin estetik formada ifadəsinə yönəlmişdir. Onun şeirlərində xalqın tarixi, qəhrəmanlıq salnamələri, folklor motivləri poetik dillə yoğrularaq oxucuya çatdırılır. “Vaqif”, “Aslan qayası”, “Qız qayası” kimi poemalarda milli-mədəni yaddaşla estetik dəyər arasında güclü bir vəhdət qurulmuşdur. Burada estetik dəyərlər, xalqın yaddaşında yaşayan obrazların müasir ruhda təqdim olunması ilə ölşülür. Digər tərəfdən, Vurğunun poeziyasında təbiət və vətən motivləri də mühüm yer tutur və öz yaradıcılığında Azərbaycan təbiətinin gözəlliklərini sadəcə təsvir etmir, onları bir estetik meyar olaraq təqdim edir. Şairin bu qəbildən olan şeirlərində təbiət obrazları ilə milli qürur hissi vəhdətdə verilir və bu cür bədii təsvirlər şeirin emosional yükünü artırmaqla yanaşı, onun estetik dəyərini də yüksəldir.

S.Vurğun poeziyasında insan obrazı da estetik dəyər daşıyıcısı kimi çıxış edir. Onun şeirlərində zəhmətkeş insan, elm adamı, əsgər- hər biri mənəvi və estetik ideal kimi təqdim olunur. Şair bu obrazları sadəcə tərif etmir, onları poetik dillə əbədiləşdirir. Buda, poeziyada həm ideoloji, həm də estetik dəyərlərin vəhdətini təmin edir.

S.Vurğunun dili və üslubu da estetik dəyərlərin mühüm göstəricisidir. Onun şeirlərindəki ritm, metoforik qatlar və musiqili ahəng oxucunun zövqünü oxşamaqla yanaşı, poeziyanın forma gözəlliyini də önə çıxarır. Vurğun poeziyası bu mənada əsil estetik bir məktəbdir. Nəticə etibarilə şairin şeirləri həm ideya baxımından dəyərli, həm də poetik cəhətdən yüksək səviyyədədir. Bu isə onu yalnız bir dövrün deyil, bütöv bir xalqın estetik yaddaşında əbədi yaşadan əsas amillərdəndir.

Poeziya və fəlsəfə insan düşüncəsinin iki mühüm təzahürüdür. Fəlsəfə ağılın və təfəkkürün, poeziya isə duyğunun və ilhamın məhsuludur. Lakin dahi sənətkarlar bu iki aləmi birləşdirə bildikdə, ortaya həm ruhu titrədən, həm də düşüncəni oyada bilən əsərlər çıxır. S.Vurğun da bu mənada poeziya ilə fəlsəfənin vəhdətini yarada bilmiş dahi sənətkarlardandır. Vurğun

yaradıcılığında poeziya və fəlsəfə həqiqətən də bir-birini tamamlayır. Vurğun poeziyası fəlsəfi düşüncələri gözəlliklə bəzəyərək hisslərə ötürür və insanın duyğularını fəlsəfi düşüncələrlə birləşdirərək, dərin hisslər oyada bilir və o, insanın mənəvi dünyasını dərk etməyə, həyatın mənasını açmağa çalışır. Onun əsərlərində tez-tez rast gəldiyimiz vətən sevgisi isə sadəcə emosional bir duyğu kimi yox, həm də fəlsəfi bir borc, əxlaqi bir məsuliyyət kimi təqdim olunur. Vətən anlayışı onun üçün sadəcə torpaq deyil, bir ideal, bir amal, bir varlıq fəlsəfəsidir. O, insanın mənəvi böyüklüyünü torpaqla bir tutur.

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən.
Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

Bu misralarda fəlsəfi təfəkkürlə bədii duyğunun nə qədər ahəngdar şəkildə qovuşduğunu görmək mümkündür. Burada şair torpağa, vətənə sahiblənərək mənəviyyatın zirvəsinə ucalır. Bu da şairin poetik gücünün və fəlsəfi dünyagörüşünün sübutudur.

Digər tərəfdən, Vurğunun zaman və insan münasibətini işıqlandırdığı şeirləri də onun fəlsəfi axtarışlarını göstərir. O, keçmişə boylanır, bu günü düşünür, gələcək üçün böyük ümidlərlə yazıb yaradırdı. Onun üçün poeziya tək ifadə vasitəsi yox, həm də düşüncə platforması idi. S.Vurğunun poeziyasında fəlsəfə ilə poeziya bir-birinə sirdaş olub, insan ruhunun ən dərin qatlarına səyahət edir. O, duyğularla düşüncənin vəhdətini yaradır, oxucunu həm təsirləndirir, həm də hikmətə çağırır. Onun timsalında görürük ki, həqiqi poeziya sadəcə gözəllik deyil, həm də həqiqət axtarışıdır. Bu səbəbdən Vurğun poeziyası təkcə ədəbi dəyər deyil, həm də fəlsəfi məktəbdir-oxucunu düşündürən, yetişdirən və mənəvi cəhətdən ucaldan məktəb.

## ƏDƏBİYYAT


1. Vurğun, S. (2005). *Seçilmiş əsərləri* (Vol. 5, p.173). Şərq-Qərb.
2. Vurğun, S. (2005). *Seçilmiş əsərləri* (pp.13–105). Şərq-Qərb.
3. Əfəndiyev, A. (1976). *Müdriklik səlahiyyəti* (p.62). Gənclik.
4. Vurğun, S. (2025). *Seçilmiş əsərləri* (Vol. 5, p.156). Şərq-Qərb.
5. Vəkilov, M. (1986). *Ömür dedikləri bir karvan yolu* (p.43). Yazıçı.
6. Sözlər.im. (n.d.). *Authors*. https://www.sozler.im
7. Əfəndiyev, A. (1976). *Müdriklik səlahiyyəti* (p.16). Gənclik.

## REFERENCES

1. Vurghun, S. (2005). *Selected works* (Vol. 5, p.173). Sharq-Qerb. (in Azerbaijani)
2. Vurghun, S. (2005). *Selected works* (13–105). Sharq-Qerb. (in Azerbaijani)
3. Afandiyev, A. (1976). *The authority of wisdom* (p.62). Ganjlik. (in Azerbaijani)
4. Vurghun, S. (2025). *Selected works* (Vol. 5, p.156). Sharq-Qerb. (in Azerbaijani)
5. Vekilov, M. (1986). *A caravan road called life* (p.43). Yazichi. (in Azerbaijani)
6. Sozler.im. (n.d.). *Authors*. https://www.sozler.im (in Azerbaijani)
7. Afandiyev, A. (1976). *The authority of wisdom* (p.16). Ganjlik. (in Azerbaijani)